Ədəbiyyat qəzeti

31 oktyabr 2020-ci il 29

## Üçrəngli Bayrağım

Ucalıb göylərə, bir daha enməz,
Şanlı istiqlalın məşəli sönməz,
Sənə məhəbbətim bitməz, tükənməz.
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Yaşılın - İslamın, haqqın yoludur,
Mavi - ulu Türkün polad qoludur,
Qırmızı - millətin çağdaş yoludur.
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Dalğalan, Cavadın ruhu oyansın,
Müşfiqin can evi nura boyansın,
Cavidin arzusu məşəltək yansın.
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Sənə layla çalır mavi Xəzərim,
Eşqinlə kükrəyir Arazım-Kürüm,
Sən, ey Məkkəm, qibləm, müqəddəs pirim
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Əbədiyyət aldın Ulu Heydərdən,
Yazıldın tarixə başdan, binədən,
Qovuşdun millətə, fəxr etdi Vətən!
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Şöhlətəm, ruhumsan, damarda qanım,
Hazıram uğrunda odlara yanım,
Fədadır yolunda həyatım, canım.
Üçrəngli bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

## Qəzanız mübarək

*27 sentyabr 2020-ci il tarixində*
*Azərbaycan Respublikasının Prezidenti,*
*Ali Baş Komandan İlham Əliyev*
*Dağlıq Qarabağın erməni quldurlarının*
*işğalından azad olunması üçün*
*Şanlı Ordumuza döyüş əmrini verdi.*

Dağlar haray çəkib səsləyir bizi,
Qəzanız mübarək, ey nər igidlər!
İnləyən Qarabağ gözləyir bizi,
Qəzanız mübarək, ey nər igidlər!

Yetər, qan-yaş töküb hər gün ağladıq,
Yetər, qara çalıb matəm saxladıq.
Yetər, özgələrə ümid bağladıq,
Qəzanız mübarək, ey nər igidlər!

Amandır, yağıya məskən olmasın,
Xan Şuşa həsrətdən gültək solmasın.
Şəhidlərin qanı yerdə qalmasın,
Qəzanız mübarək, ey nər igidlər!

Bəsdir, paramparça dağıldı Vətən,
Bəsdir, yağmalanıb sağıldı Vətən.
Bəsdir, göz yaşında boğuldu Vətən,
Qəzanız mübarək, ey nər igidlər!

Qoşa minarələr azana həsrət,
Düşmən hiyləsini pozana həsrət.
Zəfər dastanını yazana həsrət,
Qəzanız mübarək, ey nər igidlər!

Ey Türk! Qalx! Cihad et! Zəfər sənindir!
Əsir qalan yurdlar, şəhər sənindir!
İrəvan, Təbriz də öz vətənindir!
Qəzanız mübarək, ey nər igidlər!

Baş komandan verdi hücum əmrini,
Döyüşə qaldırdı öz ləşkərini!
Şanlı əsgər, göstər sən hünərini!
Qəzanız mübarək, ey nər igidlər!



**Şöhlət ƏFŞAR**

## Sən üzülmə, ay ana!

*1993-cü ildən erməni quldurlarının*
*işğalı altında olan Murov dağını*
*27 ildən sonra Şanlı Azərbaycan Ordusu*
*düşmənlərdən azad etdi.*

Murov dağda, səngərdəyəm, ay ana,
And içirəm şəhidlərin qanına,
Qoymaram ki, düşmən baxsın bu yana,
Sən üzülmə, heç üzülmə, ay ana!

Düşmənlərin bağrına dağ basacam,
Kürüyəcəm, torpağımdan atacam,
Bayrağımı Xan Şuşada asacam,
Sən üzülmə, heç üzülmə, ay ana!

Öz qanına bələyəcəm "yan"ları,
Barıt ilə doyuracam onları,
Ayaq altda əziləcək canları,
Sən üzülmə, heç üzülmə, ay ana!

Qartal kimi bir gülləyə tuş olsam,
Şəhid olub qızıl qana boyansam,
Ay-ulduzlu bayrağıma sarınsam,
Sən üzülmə, heç üzülmə, ay ana!

Ağ saçına, O Kəbəyə and olsun,
Oğlun gərək düşmənlərdən öc alsın,
Əgər ölsəm, Vətən, başın sağ olsun!
Sən üzülmə, heç üzülmə, ay ana!

## Fəqət, qul olmaz

*"Türklər ya ölərlər, ya hicrət edərlər,*
*fəqət qul olmazlar!"*

**Əli Bəy Hüseynzadə**

Ey Türk! Qalx! Qalx! Qır yerin sümüklərini,
Sən qılıncsan, kəs şərin biləklərini,
Oy, dağla xainlərin bəbəklərini,
Türk ölər, hicrət edər, fəqət qul olmaz!

Sən Oğuzsan, Beyrəksən atır belində,
Sən Qorqudsan, müdriksən hikmət dilində,
Atillasan, Nadirsən qeyrət qəlbində,
Türk ölər, hicrət edər, fəqət qul olmaz!

Günəşdən od almısan, ürəyin məşəl,
Bayrağında Ay, ulduz möhtəşəm, fövqəl,
Atatürkdən öyrəndik əbədi, əzəl,
Türk ölər, hicrət edər, fəqət qul olmaz!

Coş, kükrət içindəki qəzəb selini,
Tök yağının qanını, sındır belini.
Qaytar Qarabağını - o Türk elini,
E...heyy!.. Səninləyəm, Türk eli!
Türk ölər, hicrət edər, fəqət qul olmaz!
E...heyy!.. Səninləyəm, Türk eli!